# Milli Qurtuluş - Böyük Qayıdışa aparan yol

(əvvəli 1-ci səhifədə)

Ümummilli lider öz xalqına, dövlətinə xidmətlərini SSRİ kimi nəhəng bir dövlətin əsas rəhbərlərindən biri olaraq Kremldə çalışdığı illərdə də əzmlə davam etdirdi. O, Kremldə tək Azərbaycan SSR-in deyil, digər türk respublikalarının da ən qüdrətli hamisi idi. Bütün bunlar isə Heydər Əliyevə xalq rəğbətini artırmaqla yanaşı, ulu öndərimizin Kremldəki əleyhdarlarını da qıcıqlandırırdı. XX əsrin 80-ci illərinin sonlarına doğru artıq Heydər Əliyev Kremldə öz fəaliyyətini şovinizm prinsipləri əsasında quran böyük bir təxribatçı dəstəyə qarşı təkbaşına dayanmışdı. Nəhayət, o zamankı SSRİ rəhbərliyinin ədalətsiz qərarı ilə Heydər Əliyev istefaya göndərildi və bununla da Azərbaycanın və türk respublikalarının fəlakətli günləri başlandı. Bu ölkələr qanlı münaqişə meydanına çevrildi, sosial-iqtisadi böhrana sürükləndi. Həlli 30 il çəkən keçmiş Dağlıq Qarabağ münaqişəsinin əsası qoyuldu. 1990-cı ilin 20 yanvarında Bakı küçələrində yüzlərlə insanın qanı axıdıldı. Belə çətin, təhlükəli bir vaxtda, bütün dünyada özünü təklənmiş kimi görən Azərbaycan xalqı üçün ən böyük təsəlli, mənəvi dəstək doğma övladını - Heydər Əliyevi yenə öz sıralarında görmək oldu. Ulu öndər anadan olduğu doğma məkana - Naxçıvana qayıtdı. Bu qayıdış Azərbaycan xalqının ürəyində ümid çırağı yandırdı, xalqımızın qurtuluşunun başlanğıcı oldu.

Həmin dövr həlledici bir mərhələ kimi yaddaşlarda qaldı. Belə ki, müstəqilliyə nail olunsa da, respublikanın müstəqilliyini təmin edəcək əsaslar formalaşmamışdı, ölkədə xaos, anarxiya baş alıb gedir, sosial-iqtisadi böhran gündən-günə dərinləşir, bir-birini əvəz edən iqtidarların səriştəsiz siyasəti Azərbaycanı fəlakətə sürükləyirdi. Bakıda hakimiyyət uğrunda silahlı mübarizə gücləndikcə Ermənistan silahlı qüvvələri tərəfindən torpaqlarımızın işğalı da genişlənirdi. Çoxmillətli respublika olan Azərbaycanın müxtəlif bölgələrində xarici qüvvələrin təhriki ilə separatizm meyilləri baş qaldırmışdı.

Belə çətin bir dövrdə xalqımızın kömək umduğu yeganə güc sahibi yenə də məhz Heydər Əliyev idi. Xalq öz ümummilli liderini onu bu fəlakətlərdən xilas etməyə çağırdı. 1993-cü il iyunun 15-də ulu öndər xalqın təkidli çağırışı ilə respublikada hakimiyyətə qayıtdı. 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi"nin imzalanmasına nail olan ümummilli lider Azərbaycanın gələcək inkişafının əsasını qoydu. Ölkəmizin növbəti mərhələlərdə qazandığı uğurlarda neft strategiyasının müstəsna əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev deyib: "Heydər Əliyevin neft strategiyasının icrası istiqamətində ölkəmizə milyardlarla dollar xarici sərmayə gətirilibdir. Əgər 1994-cü ildə, o çətin şəraitdə "Əsrin müqaviləsi" imzalanmasaydı, ondan sonrakı dövr ərzində bütün infrastruktur layihələri həyata keçirilməsəydi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə başlanmasaydı, bu gün Azərbaycanda iqtisadi inkişafdan, ümumiyyətlə, söhbət gedə bilməzdi. Azərbaycanın bir çox sahəsi məhz "Əsrin müqaviləsi"ndən sonra inkişaf etməyə başladı...".

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə cəmiyyətdə milli birlik təmin edildi, dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq özünü Azərbaycana bağlı sayan hər kəs ümummilli liderin özünəməxsus müdrikliklə irəli sürdüyü azərbaycançılıq ideologiyası ətrafında birləşdi.

Ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülmüş "güclü iqtisadiyyatı olan dövlət hər şeyə qadirdir" tezisi Azərbaycanın sıçrayışlı inkişaf strategiyasının əsası kimi qəbul olunan ideya və baxışlar sistemində həm ölkəmizin müdafiə potensialının artırılması, həm də keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında da əsas amillərdən oldu. Ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində 30 illik erməni işğalına son qoyuldu, ərazi bütövlüyü, müstəqillik tam təmin edildi, beynəlxalq hüquq bərpa olundu. Qarabağda kök salmış separatizmin kökü kəsildi. İndi Azərbaycanın hər bir bölgəsində üçrəngli bayrağımız qürurla dalğalanır, dünyada söz sahibi olan ölkəmizin beynəlxalq nüfuzu artır. Ulu öndərin görmək istədiyi Azərbaycan bu gün dünyaya günəş kimi doğub!

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika.- 2024.- 15 iyun, № 126.- S.10.